**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İNSAN HÜQUQLARI üzrə ELMİ TƏDQİQAT İNSTİTUTU**

***Əlyazması hüququnda***

**XALID QÜDRƏT OĞLU NIYAZOV**

# AZƏRBAYCANDA SİYASİ SİSTEMİN MODERNLƏŞMƏSİ ŞƏRAİTİNDƏ DÖVLƏT İNFORMASİYA SİYASƏTİ
(KİV TIMSALINDA)

**İxtisas: 5904.01 - Siyasi institutlar və sistemlər**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**B A K I – 2014**

**Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutunda yerinə yetirilmişdir**

**Elmi rəhbər:** **Ə.M.Həsənov**
*tarix elmləri doktoru, professor*

**Rəsmi opponentlər:** **G.İ.İbrahimova**
*siyasi elmlər doktoru*

**H.B.Məmmədov**
*siyasi elmlər doktoru*

**Aparıcı təşkilat:** **Bakı Slavyan Universiteti**

Müdafiə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 17 mart 2014-cü il 68 saylı əmri ilə 5904.01 – "Siyasi institutlar və sistemlər" ixtisası üzrə siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün AMEA İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutu nəzdində yaradılmış FD. 01.242 saylı Müvəqqəti Dissertasiya Şurasının "___" ___________ 2014-cü il tarixili iclasında saat ____ -da keçiriləcək.

**Ünvan:** Az 1143, Bakı şəhəri, H.Cavid pr. 31 (Akademiya şəhərciyi)

Dissertasiya işi ilə AMEA İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutunun Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "__" __________ 2014-cü ildə göndərilmişdir.

**FD. 01.242 saylı Müvəqqəti**
**Dissertasiya Şurasının elmi katibi,**
**s.ü.f.d.:** **R.Ə.Hüseynov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Qloballaşma və transmilli səciyyə daşıyan demokratikləşmənin getdikcə geniş vüsət aldığı müasir dünyada cərəyan edən dövlətdaxili və dövlətlərarası münasibətlərdə hər bir ölkənin siyasi sisteminin xarakterinə ciddi diqqət ayrılır. Bu nöqteyi-nəzərdən hazırda siyasətşünas alimlərin qarşısında duran mühüm vəzifələrdən biri də dünya dövlətlərinin siyasi sistemini dərindən öyrənərək elmi surətdə şərh etməkdən və buna uyğun olaraq demokratikləşmə proseslərinin inkişaf prioritetlərini müəyyənləşdirməkdən ibarətdir. Bu istiqamətdə dərin elmi tədqiqatların aparılması müasir dünya dövlətlərinin dəqiq və obyektiv gerçəkliyə əsaslanan təsnifatının verilməsi, eləcə də onların inkişaf səviyyələrinin müəyyənləşdirilməsi baxımından zəruridir.

Azərbaycan Respublikasının ötən əsrin 90-cı illərindən sonra yeni siyasi mahiyyət və çalarlar kəsb edən siyasi sistemi daim inkişaf edir və təkmilləşir. Bu inkişafa dinamiklik xas olsa da, bu gün biz həmin prosesin tam başa çatdığını, xalqın mentalitet və mədəniyyətinə adekvat bir səviyyənin əldə edildiyini iqrar edə bilmərik. Hesab edirik ki, yalnız bir halda- cəmiyyətin özü üçün qət etdiyi inkişaf yolu və qarşısına qoyduğu məqsədlərdə aydın və dəqiq prioritetlərin müəyyənləşdiyi, ölkə sosiumundakı siyasi qüvvələr arasında sivil konsensusun bərqərar olduğu təqdirdə, belə bir arzuedilən səviyyəyə nail olmaq mümkündür.

Azərbaycan Prezidenti İlham Əliyevin son 10 ili əhatə edən məhsuldar və səmərəli fəaliyyəti milli siyasi məkanın inkişaf vektorunun beynəlxalq geosiyasi və geoiqtisadi arxitektura kontekstində cərəyan edən pozitiv yüklü proseslərə yönəlik dəyişməsini şərtləndirmişdir. Ölkədə siyasi transformasiyanın mötədil addımlarla, siyasi sistemin müxtəlif institutlarının konstruktiv işbirliyi şəraitində aparılması modernləşmə xəttinin müvəffəqiyyətini və konkret tarixi şəraitdə maksimum optimal seçim olduğunu söyləməyə əsas verir.

Ümummilli lider Heydər Əliyev Azərbaycanda söz və mətbuat azadlığının qarantı olduğunu dəfələrlə bəyan etmişdir. Eyni rasional və konstruktiv siyasət sonrakı illərdə Prezident İlham Əliyev tərəfindən də davam etdirilmiş, dövlətin informasiya siyasətinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi, sahənin maddi-sosial problemlərinin həll edilməsi, bəşər sivilizasiyasına, beynəlxalq demokratik dəyərlər sisteminə fəal inteqrasiya istiqamətində məqsədyönlü işlər aparılmışdır. Siyasi sistemin çox vacib bir institutu kimi informasiya seqmenti digər institutlarla da səmərəli əməkdaşlığa can atır.

Tədqiqat işinin aktuallığı belə bir reallıqla şərtlənir ki, Azərbaycanın siyasi sisteminin modernləşməsi dövlətin yeni informasiya siyasətinin formalaşması ilə müşayiət olunur. Aparılmış islahatlar nəticəsində siyasi sistemin liberallaşdırılması informasiya siyasətinin siyasi fəaliyyətin ayrıca bir qolu kimi fərqləndirilməsinə, kütləvi informasiya vasitələrinin ictimai inkişafın əvvəlki mərhələlərindən prinsipcə fərqli formasının yaradılmasına gətirib çıxarmışdır. İnformasiya getdikcə öz mövqelərini daha da möhkəmlədərək şəxsi və ictimai həyatın təşkili və tənzimlənməsinin mühüm vasitəsinə çevrilmişdir. Ölkə prezidenti İlham Əliyev 2013-cü ili "İnformasiya Texnologiyaları ili" elan etmiş, Azərbaycan informasiya cəmiyyəti kimi təşəkkül tapmağa başlamışdır.

**Problemin işlənmə dərəcəsi.** Dövlət informasiya siyasətinin formalaşması problemi milli dövlətlər üçün həmişə prioritet əhəmiyyət kəsb etmişdir. Qərb dövlətçilik təcrübəsi tarixən informasiya seqmentinin siyasi sistemin müstəqim institutu kimi önəmini birmənalı qəbul edib. Müstəqil olmayan ölkələrdə isə informasiya siyasətinin təsirli təbliğat və təşviqat aləti, maarifçilik vasitəsi olduğunu nəzərə alan metropoliya rejimləri milli informasiya resurslarının yaradılması cəhdlərini nəinki qısqanclıqla qarşılamışlar, hətta bu cür təşəbbüslərin qarşısını qətiyyətlə, inzibati-amirlik yolları ilə almışlar. Azərbaycanda informasiya siyasətinin, təəssüflər olsun ki, milli dövlət səviyyəsində deyil, milli şüurun, milli azadlıq ideyalarının formalaşması zəminində təşəkkülü XIX əsrə təsadüf edir. Ötən əsrin ikinci onilliyində Azərbaycanın timsalında müsəlman Şərqində ilk müstəqil dövlətin qurulması müxtəlif milli mətbuat nümunələrinin yaradılması ilə müşayiət olunan informasiya siyasətinin formalaşmasından xəbər verirdi.

Dissertasiya işi yerinə yetirilərkən müasir sosiologiyanın kütləvi informasiya kommunikasiyaları və kütləvi informasiyanın dövlət idarəçiliyində və bütövlükdə siyasətdə rolunu ətraflı işıqlandırmış M.Veber, K.Yaspers, T.Adorno kimi klassiklərinin maraqlı fikirləri[1] nəzərdən keçirilmişdir.

P.Burdyenin elmi işləri informasiya və siyasətin tədqiqatına orijinal yanaşması ilə diqqəti cəlb edir. O, jurnalistikanı siyasət sahəsindən hər nə qədər asılı olsa da, onu özünün mediatik məntiqinə tabe edən xüsusi sosial

---

[1] Вебер М. Избранные произведения / Пер. с нем.; сост., общ. ред. и послесл. Ю. Н. Давыдова; предисл. П. П. Гайденко; коммент. А. Ф. Филиппова. Москва: Прогресс, 1990, 808 с.; Ясперс К. Смысл и назначение истории. Пер. с нем. 2-е изд. Москва: Республика, 1994, 527 с.; Адорно Т. Проблемы философии морали. Пер. с нем; [пер. с нем. М. Л. Хорькова]. Москва: Республика, 2000, 238 с.

sahə kimi səciyyələndirirdi[2]. Digər tanınmış müəllif – müasir postindustrial cəmiyyətin perspektivlərini araşdıran D.Bell bilik və informasiyanı sosial inkişafın əsas faktoru kimi nəzərdən keçirirdi[3].

Dövlət informasiya siyasətinə hüquqi yanaşma hələ XIX əsrdə liberalizmin bir çox nəzəriyyəçiləri tərəfindən irəli sürülmüşdü. Sosioloji yanaşmanın baniləri K.Marks və F.Engels kütləvi informasiya vasitələrinin siyasi sistemdəki yerini dövlətlə cəmiyyət arasında "üçüncü element" kimi görürdülər[4].

Heç şübhəsiz, başqa yanaşmalar, prinsipcə fərqli yaxud oxşar mövqelər də olmuşdur. Məsələn, bu sıradan KİV-in təbliğat vasitəsi kimi inkişafı texnologiyalarına təsir göstərən psixoloji tədqiqatları göstərmək mümkündür. Müasir sosial və təbliğat xarakterli texnologiyaların demokratiya xidmət etməli olduğunu söyləyən Karl Manheymin bu sahədə klassik tədqiqatları maraq doğurmaya bilmir[5].

KİV sahəsində dövlət siyasəti məsələsi zaman-zaman jurnalistika nəzəriyyə-çilərini də məşğul etmişdir. Məsələn, tanınmış rus alimi Y.A.Nisneviçin "İnformasiya və hakimiyyət" adlı monoqrafiyasında daha çox dövlətin informasiya siyasətinin təşkilati-hüquqi təhlilinə yer ayrılmışdır. Müəllifin tədqiqatında diqqətimizi çəkən əsas məqam Y.Xabermasın yalnız cəmiyyətin özünün hakimiyyətin təklif etdiyi məqsəd və hərəkətləri azad şəkildə tənqid edərək dəyərləri, məqsəd, norma və faktları müəyyənləşdirməklə ictimai inteqrasiyanın çox vacib resurslarından birini yaratması barədə görüşlərini inkişaf etdirməsidir[6].

Tədqiqata cəlb edilmiş mövzunun daha dərindən öyrənilməsi üçün H.Viner, K.Şennon, A.Ursul kimi Qərb müəlliflərinin informasiya fenomeninin elmi dərkinə, informasiya mühitinin yaranmasına həsr olunmuş fundamental tədqiqatlarına[7] müraciət edilmişdir.

---

[2] Бурдье П. О телевидении и журналистике. Пер. с фр. Т. В. Анисимова и Ю. В. Марковой, отв.ред. и пред. Н.А.Шматко. Москва: Прагматика культуры, 2002, 160 с.

[3] Белл Д. Грядущее постиндустриальное общество. Опыт социального прогнозирования / Пер. с англ. Москва: Academia, 1999, 632 с.

[4] Маркс К. Оправдание мозельского корреспондента / Маркс К. Энгельс Ф. Соч. Т.2. Изд. 2-е., с. 18.

[5] Маннгейм К. Избранное: Диагноз нашего времени. Москва: Изд-во «РАО Говорящая книга», 2010, 744 с.

[6] Нисневич Ю.А. Информация и власть. Москва: Мысль, 2000, 175 с.

[7] Винер Н. Кибернетика и общество / Пер. с англ. Е.Г. Панфилова. Москва: 2002; Шеннон К. Работы по теории информации и кибернетике. Москва: изд. Иностранная лит-ра, 1963, 830 с.; Урсул А. Информация. Методологические аспекты. Москва: Наука, 1971, 295 с.

Elmi iş üzərində çalışarkən hakimiyyət, cəmiyyət və KİV arasındakı qarşılıqlı münasibətlərin düzənindən bəhs edən rus filosof və siyasətşünaslarından K.Hacıyev, A.Panarin və V.Puqaçovun, eləcə də jurnalistika və KİV sahəsində dövlət siyasəti məsələlərinin öyrənilməsi ilə məşğul olmuş E.Proxorov və İ.Dzyaloşinskinin əsərləri[8] nəzərdən keçirilmişdir.

Cəmiyyətin inkişaf fəlsəfəsinə uyğun olaraq müasir mərhələdə ənənəvi medianın öz yerini tədricən elektron mediaya ötürməsi, onların qloballaşma prosesi ilə əlaqəsi, kütləvi mədəniyyət və KİV-in tədqiqat obyekti kimi aktuallaşması kütləvi kommunikasiyalar nəzəriyyəsinin yaranmasını şərtləndirmişdir. Öz tədqiqatlarında bu fenomeni araşdıran kanadalı alim M.Mak-Lyuen massmedianın altı modelini fərqləndirir: müstəqil massmedia, sosial məsuliyyət, demokratik nümayəndəlik, avtoritar, sivil və inkişaf modelləri [9]

Yeni informasiya texnologiyalarının inkişafı ilə informasiya siyasəti daha bir aspektlə zənginləşir: cəmiyyətin informasiyalaşdırılması, beynəlxalq informasiya mübadiləsində iştirak, informasiya təhlükəsizliyinin təmin olunması dövlətin vəzifələri sırasına daxil olur. Bu isə öz növbəsində müasir cəmiyyətdə dövlət informasiya siyasətinin rolunu artırır.

Azərbaycanda XIX əsrin sonlarına təsadüf edən dövlət informasiya siyasətinin formalaşması prosesi və cəmiyyətin əsas siyasi institutu sayılan mətbu orqanların nəşri ilə şərtlənmişdir. Hesab edirik ki, massmedianın siyasi proseslərə təsiri məsələsində hər bir zaman aktuallığını qoruyan iki əsas yanaşmanı qabartmaq mümkündür: təbliğati və jurnalist. Birinci yanaşma metodu öz mənşəyi etibarilə daha erkən dövrə təsadüf edir və KİV-in də təsbit etdiyi kimi, vətəndaşlara və onların siyasi oriyentasiyasına ciddi təsir göstərir. İkinci nəzəriyyə isə ölkəmizdə müstəqilliyin elan edilməsindən sonrakı dövrdə informasiya axınlarını və ictimai diskussiyaları səbəbləndirən mövzuların idarə olunmasında KİV-in prioritet rolunu qabardır.

İnformasiyanın problemləri, onun siyasətlə qarşılıqlı əlaqələri, yeni informasiya siyasətinin formalaşmasında siyasi sistem və dövlətin rolu ilə

---

[8] Гаджиев К.С. Политическая философия. Москва: Экономика, 1999, 606 с.; Панарин А.С. Искушение глобализмом. Москва: Эксмо-Пресс, 2002, 416 с.; Пугачев В.П. Информационная власть и демократия // Общественные науки и современность. Москва: 1999, №4, с. 65-77; Прохоров Е.П. Введение в теорию журналистики. Москва: Аспект Пресс, 2009, 368 с.; Дзялошинский И.М. Методы деятельности СМИ в условиях становления гражданского общества. Москва: Пульс, 2001, 48 с.

[9] Мак-Люэн М. Галактика Гутенберга. Сотворение человека печатной культуры - Киев: Изд. Ника-Центр, Эльга, 2003, 432 с.

bağlı Azərbaycan elmi ədəbiyyatında fundamental şəkildə olmasa da məsələnin bu və ya digər aspektlərini elmi-politoloji və nəzəri-konseptual yöndən işıqlandıran əsərlər işıq üzü görmüşdür. Eyni məsələyə prof. Ə.Həsənov, prof. R.Mustafayev, AMEA-nın müxbir üzvü, prof. R.Əliquliyev, akad. R.Mehdiyev, prof. İ.Məmmədzadə, AzərTac-ın baş direktoru A.Aslanov öz əsərlərində toxunmuşlar[10].

Dövlət informasiya siyasətinin inkişafında müasir mərhələnin özəlliyi ondan ibarətdir ki, modernləşmə şəraitində dəyişikliklərin həyata keçirilməsində o, dövlətin əsas instrumentlərindən biri kimi çıxış edir. Bununla belə, ondan istifadə demokratik konstitusiya normaları ilə məhdudlaşdırılır. Dövlətin azad informasiya məkanına təsiri də müvafiq normativ-hüquqi baza ilə nizamlanır. Burada dövlət-vətəndaş münasibətləri kontekstində qarşılıqlı məsuliyyət və öhdəlik məsələsi aktuallaşır. Yəni dövlət sosial innovasiyalara dəstək olmalı, cəmiyyəti və onun sosial informasiyasını müasir hüquqi dövlətin təməl prinsipi olan informasiya azadlığı prinsipini pozmamaq şərtilə daxili və xarici təhdidlərdən qorumalıdır.

Elmi işdə dövlət hakimiyyəti və idarəetmə orqanlarının informasiya-analitik təminatı problemlərinin, idarəetmə strukturlarının informasiyalaşdırılması, ölkə ərazisində vahid informasiya məkanının yaradılması məsələlərinin öyrənilməsi zərurəti qeyd olunur.

Bu aspektdən yanaşdıqda, istər KİV timsalında, istərsə də müstəqil şəkildə dövlət informasiya siyasəti öyrənilməmiş sahədir və buna görə də dissertasiya işinin mövzusu yenidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Elmi işdə məqsəd kimi aşağıdakı vəzifələrin yerinə yetirilməsi hədəflənmişdir:

- modernləşməkdə olan cəmiyyətin siyasi sisteminin dövlətin informasiya siyasətinə təsirini öyrənmək, bu qarşılıqlı əlaqənin insanların söz və ifadə azadlığı kimi fundamental hüquqlarına hər hansı bir neqativ təsirini neytrallaşdırmaq;

---

[10] Həsənov Ə., Vəliyev A. Azərbaycanın və xarici ölkələrin siyasi sistemləri. Bakı: Azərbaycan, 2007, 247 s.; Mustafayev R. Azərbaycan dövlətçiliyi: özümüzü və dünyanı dərketmə yolunda. Bakı; Azərnəşr, 1995, 223 s.; Əliquliyev R.M. Cəmiyyətin informasiya təhlükəsizliyinə dair bəzi konseptual baxışlar / R.M.Əliquliyev, Y.N.İmamverdiyev, F.F.Yusifov. // İnformasiya Cəmiyyəti Problemləri. Bakı, 2011. № 2, s. 3-9; Mehdiyev R.Ə. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti // "Azərbaycan" qəz., 16 yanvar 2008; Məmmədzadə İ.R. İnformasiya cəmiyyətinə aparan yol. // **http.phillow.az-org/p=469.;** Aslanov A. İnkişafın Azərbaycan modelinin arxitekturasında mətbuatın yeri və rolu // "Azərbaycan" qəz., 3 may 2012

- inkişafın Azərbaycan modeli şəraitində dövlətin informasiya siyasətinin məqsəd və vəzifələrinin şərh edilməsi.

- siyasi sistemin modernləşməsi şəraitində dövlət informasiya siyasətinin formalaşması ilə bağlı tövsiyələrin hazırlanması.

Qarşıya qoyulmuş məqsəd bir sıra vəzifələrin həllini tələb etmişdir:

- kütləvi informasiya vasitələrinin cəmiyyətdə siyasi sistemin rolunun optimallaşdırılmasındakı rolunun təhlili;
- müasir Azərbaycan cəmiyyətində siyasi sistemin tədqiqinin nəzəri-metodoloji əsaslarının müəyyən edilməsi;
- dövlət informasiya siyasətinin modernləşmə prosesindəki rolunun tədqiqi;
- vətəndaş cəmiyyətinin təşəkkülündə informasiya siyasətinin rolunun araşdırılması;
- kütləvi informasiya vasitələrinin müasir Azərbaycanın siyasi sistemindəki yer və rolunun müəyyənləşdirilməsi.

**Tədqiqatın obyekti.** Elmi işdə müasir Azərbaycan cəmiyyətinin siyasi sistemi, modernləşmə prosesi, dövlət informasiya siyasəti tədqiqat obyekti kimi götürülmüşdür.

**Tədqiqatın predmeti.** Modernləşmə prosesini yaşayan siyasi sistem çərçivəsində cəmiyyət və dövlət tərəfindən qarşılıqlı əlaqə prosesində meydana çıxan dövlət informasiya siyasəti. Müasir Azərbaycan cəmiyyətinin siyasi sisteminin modernləşməsinin informasiya siyasətinə təsiri.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiya işi çərçivəsində aparılmış tədqiqat prosesində aşağıdakı elmi metodlar tətbiq edilmişdir:

- institusional – KİV-in siyasi institut kimi rolunun təhlili ;
- struktur-funksional – cəmiyyətin siyasi sisteminin və onun informasion altisiteminin funksiya və strukturunun təhlili;
- tarixi – müasir cəmiyyətdə informasiya siyasətinin inkişafında KİV-in müxtəlif mərhələlərinin təhlili;
- sistemli – cəmiyyətin siyasi və sosial sistemində informasiya siyasətinin və KİV-in rolunun təhlili;
- müqayisəli – xarici ölkələrin KİV və informasiya siyasətinin təhlili və onların təcrübəsindən Azərbaycan şəraitində istifadənin mümkünlüyü.

Tədqiqat işində habelə bu sahədə nüfuz sahibi olan mütəxəssislərin nəzəri fikirlərindən, politoloji elmdə tədqiqat metodu kimi çıxış edən nəzəri-problem, kontent analiz, sosioloji, xronoloji, konkret və ümumi elmi metodları əhatə edən metodlar sistemindən istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan müddəalar:**

- Müasir Azərbaycanda dövlət informasiya siyasətinin təşəkkülü;
- vətəndaş cəmiyyəti müasir mərhələdə siyasi modernləşmənin əsas subyekti kimi;
- kütləvi informasiya vasitələrinin siyasi sistemin modernləşməsində və vətəndaş cəmiyyətinin formalaşmasında rolu;
- azad sözün və müstəqil KİV-in formalaşması dövlət informasiya siyasətinin vəzifəsi kimi;
- informasiya və siyasi proseslərin qarşılıqlı əlaqəsi obyektiv və dialektik proses kimi;
- müasir mərhələdə siyasi modernləşmənin subyekti kimi vətəndaş cəmiyyətinin təşəkkülündə KİV-in rolu ;
- müstəqil KİV-lər şəbəkəsinin yaradılması dövlət informasiya siyasətinin vəzifəsi kimi

Dissertasiya müəllifinin fikrincə, ölkədə dövlət informasiya siyasətinin həyata keçirilməsində əsas ləngidici amil kimi dövlət hakimiyyəti orqanları ilə xalq arasında keyfiyyətli kommunikativ mübadilənin olmaması çıxış edir.

**Tədqiqatın empirik bazasını** müxəlif mənbələr təşkil etmişdir: Azərbaycan Respublikasının normativ-hüquqi aktları, elmi nəşrlər, dövri mətbuatdakı məqalələr, İnternet şəbəkəsi, həmçinin elmi-praktiki konfranslaın materialları, məruzələr təşkil edir.

**Tədqiqatın nəzəri bazasını** politoloji və sosioloji elmlərin klassiklərinin əsərləri, respublikanın və xarici ölkələrin aparıcı alimlərinin tədqiqatları təşkil etmişlər.

**Dissertasiyanın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi problemin Azərbaycan milli siyasi elmində, sosiologiya və jurnalistikasında ilk dəfə nəzəri-konseptual, sistemli və kompleks şəkildə araşdırılmasından ibarətdir.

Tədqiqat işindən hasil olan elmi yeniliyi aşağıdakı kimi təsnifləşdirmək mümkündür:

- Aşkar edilmişdir ki, cəmiyyətin hərtərəfli demokratikləşməsi və modernləşməsi üçün siyasi sistemin müasirləşdirilməsi vacib şərtdir. Onun konstruksiyası, sadəcə, demokratiyanın normativ tələblərinin deyil, bütövlükdə Azərbaycanın inkişafı ilə bağlı böyük, mürəkkəb və uzunmüddətli vəzifələrin həllinə uyğunlaşdırılmalıdır.
- Göstərilmişdir ki, modernləşmənin zərurəti Azərbaycanın müasir siyasi və sosial-iqtisadi inkişafının xarakteri ilə şərtlənir.
- Belə bir nəticə hasil olmuşdur ki, siyasi sistemin modernləşməsinin başlıca məqsədlərindən biri hakimiyyətin demokratikləşməsi,

səmərəli dövlət idarəçiliyinin yaradılmasıdır. Dövlətin modernləşmənin effektiv instrumentinə çevrilə bilməsi üçün işlək idarəetmə texnologiyaları, yeni münasibətlər sistemi, davranış normaları işlənib hazırlanmalı, informasiya siyasətinin cəmiyyətdəki temporitminin qoruması üçün dövlət-mətbuat-vətəndaş münasibətlərinin ahəngi təmin edilməlidir.

➢ Müəllif tərəfindən Azərbaycanın dövlət informasiya siyasəti və siyasi sistemin modernləşməsi qarşılıqlı əlaqə və asılılıq şəraitində nəzərdən keçirilmiş, müasir Azərbaycan dövlət informasiya siyasətinin təşəkkülündə siyasi institutların rolu müəyyənləşdirilmişdir.

➢ Keçid transformasiyaları şəraitində vətəndaş cəmiyyəti ilə dövlət, hakimiyyətlə xalq arasında informasiya mübadiləsi və kommunikasiyanın spesifik vasitəsi kimi dövlət informasiya siyasətinin atributiv və texnoloji parametrlərini açıqlayan nəzəri modelin hazırlanmasına səy göstərilmişdir.

➢ İnformasiya siyasətinin təhlilinin mümkün paradiqmal əsasları araşdırılmış, daha optimal tədqiqat modelləri seçilmişdir.

➢ Dövlət informasiya siyasətinin formalaşması prinsiplərinin müəllif tərəfindən strukturlaşmış dizaynı aşağıdakı kimi təqdim edilimişdr: sistemlilik, tamlıq, obyektivlik, elmilik, informasiyanın kəmiyyət və keyfiyyətinin birliyi.

➢ İnformasiya mühitinin qloballaşması şəraitində ölkənin informasiya təhlükəsizliyinin təmin edilməsində KİV-in müstəsna rolu dəyərləndirilmişdir.

➢ Azərbaycan dövlətçiliyinin, onun müasir hiperinkişafının kibertəhdidlərdən müdafiəsini etibarlı şəkildə təmin edə biləcək informasiya təhlükəsizliyi strategiyasının hazırlanması, qorunması və möhkəmləndirlməsində KİV-in yeri və əhəmiyyəti, eləcə də Prezident İlham Əliyevin ölkənin inkişaf strategiyasının müəyyənləşdirilməsində informasiya cəmiyyətinin roluna verdiyi önəm aşıqlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Əvvəla,müasir cəmiyyətlərin inadla dünya informasiya cəmiyyəti məkanına inteqrasiya etdiyi bir məqamda dövlətin informasiya siyasətinin parametrlərinin müəyyənləşdirilməsi mühüm nəzəri-praktiki əhəmiyyət kəsb edir.

Digər tərəfdən, siyasi sistemin modernləşməsi şəraitində dövlət informasiya siyasətinin tədqiqinin praktiki əhəmiyyəti ondan ibarətdir ki, elmi təhlilin yekunları, nəticələri, tövsiyələri analitik mərkəzlərin, informasiya-təhlil şöbələrinin, dövlət orqanlarının, siyasi partiya və ictimai təşkilatların mətbuat xidmətləri və ictimaiyyətlə əlaqə idarələrinin əməkdaşları, həmçinin jurnalistlər tərəfindən fəaliyyətlərinin optimallaşdırıl-

ması məqsədilə istifadə edilə bilər. Tədqiqatın materialları politologiya və sosiologiya predmetləri üzrə "Müasir informasiya fəaliyyətinin əsasları", "Dövlət informasiya siyasəti və KİV", "İnformasiya cəmiyyəti, informasiya siyasəti və KİV", "KİV siyasi prosesdə", "Siyasi hakimiyyət və onun resursları" kimi xüsusi kursların əsasını təşkil edə, politologiya, sosiologiya, dövlət qulluğunun əsasları və jurnalistika predmetləri üzrə proqram və tədris kurslarının hazırlanması və tədrisində istifadə oluna bilər.

Müasir Azərbaycan dövlətinin informasiya siyasətinin dissertasiyada işlənilmiş normativ modeli bu sahədə mövcud tədqiqatları kifayət qədər zənginləşdirməklə Azərbaycanın siyasi və mənəvi həyatında informasiya fenomeninin mahiyyəti, yeri və rolunu hərtərəfli öyrənməklə belə bir siyasətin formalaşması və fəaliyyət mexanizmləri haqqında təsəvvürləri dərinləşdirir.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmişdir. Dissertasiyanın əsas məzmununu əks etdirən müddəalar müəllifin çap olunmuş məqalələrində, müxtəlif beynəlxalq və respublika əhəmiyyətli konfranslardakı çıxış və məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya girişdən, 3 fəsildən, 8 yarımfəsildən, nəticədən, əlavədən və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN QISA MƏZMUNU

Dissertasiyanın **"Giriş"**ində araşdırılan problemin aktuallığı əsaslandırılmış, mövzunun işlənmə dərəcəsi, məqsəd və vəzifələri, nəzəri-metodoloji əsasları, elmi yenilikləri, nəzəri və praktiki əhəmiyyəti göstərilmişdir.

Tədqiqatın **"Siyasi sistemin modernləşməsi dövlət informasiya siyasətinin formalaşmasinin mühüm faktoru kimi"** adlanan **birinci fəsli** üç yarımfəsli əhatə edir. Birinci fəslin ***"Cəmiyyətdə informasiya siyasətinin mahiyyəti"*** adlanan ***birinci yarımfəslində*** aydınlaşdırılmışdır ki, hər bir cəmiyyətdə informasiya siyasəti dövlətin yürütdüyü siyasətinin vacib bir elementi olaraq ictimai-siyasi sistemin bütün komponentlərini, xüsusən də dövlət, vətəndaş cəmiyyəti və mətbuatın qarşılıqlı münasibətlərini tənzimləyən bir vasitədir. İnformasiya siyasətinin uğurla reallaşdırılması cəmiyyətin siyasi mədəniyyətinin və siyasi şüurunun yetkinlik səviyyəsi ilə şərtlənir. İnformasiya cəmiyyətinin əsas

komponenti olan informasiya siyasətində onun iki mühüm aspekti əks olunmuşdur: bunlardan biri informasiyanın ictimai inkişafın mühüm amili kimi qəbul olunması, ikincisi isə informasiyanın hadisə və proseslərin idarə olunması zərurəti kimi çıxış etməsidir. Rus tədqiqatçısı F.Y.Kuşnarevin qeyd etdiyi kimi, "İnformasiya cəmiyyətinin təşəkkülü şəraitində informasiya sosial idarəetmənin bütövlükdə ayrılmaz atributunu, informasiyanın idarə olunması isə onun bir hissəsini təşkil edir... İnformasiya proseslərinin idarə olunması informasiya siyasətinin idarə olunmasının əsas məğzini təşkil edir"[11].

İnformasiya azadlığı anlayışına intellektual və söz azadlığı daxildir. Hər bir cəmiyyət informasiya təhlükəsizliyini ümumi milli təhlükəsizliyin vacib komponenti hesab edir. İnformasiya təhlükəsizliyi mövcud informasiya mühitinin potensial təhdid və təhlükələrdən qorunmasıdır. Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir. Azərbaycanda inkişafın prioritet istiqamətlərindən biri olan İKT sahəsi bu gün keyfiyyətcə yeni və yüksək inkişaf mərhələsinə daxil olur[12].

Azərbaycanda həm İKT sahəsində, həm də İKT texnologiyalarının tətbiqi ilə bağlı bütün sahələrə aid kadrların hazırlanmasına dövlətin diqqət və qayğısı ilə əlaqədar Prezident İlham Əliyev qeyd edir: "Sirr deyil ki, bundan sonrakı dövrdə dünyada elmi-texniki tərəqqi daha çox İKT sektoru ilə bağlı olacaqdır. Biz həm qabaqcıl texnologiyaları tətbiq etməliyik, həm də peşəkar kadrları hazırlamalıyıq"[13].

Beləliklə, nəticə olaraq belə qənaətə gəlmək olar ki, informasiya siyasəti cəmiyyətin informasiya sferasında ictimai maraqlara toxunan sosial münasibətləri tənzimləyir və təşkil edir. Sosial praktikada informasiya siyasəti informasiya qaydalarını və informasiya münasibətlərini tənzimləyir. Onun reallaşması üçün müəyyən norma və qaydalar formalaşır, müxtəlif strukturlar təşkil edilir. Siyasi sistemin modernləşməsi şəraitində dövlət informasiya siyasəti demokratikləşmə proseslərinin,

---

[11] Кушнарев Ф.Ю. Информационная политика государственных органов управления как объект политического анализа / Материалы Всероссийской научно-практической конференции аналитических работников. Власть, 2004, № 8, с. 50.

[12] Qasımov E. İnformasiya təhlükəsizliyinin qorunması dövlət siyasətinin prinsipləri. "Respublika", 22 iyun 2012.

[13] Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azər. Parlament Assambleyasının II sessiyasındakı çıxışı // "Xalq qəzeti", 4 aprel 2012, № 7

vətəndaş cəmiyyəti institutlarının inkişafını, siyasi mühitin liberallaşdırılmasını və yeni dünya nizamının digər aktual çağırışlarını özündə ehtiva edir.

İşin birinci fəslinin ***"Azərbaycanda siyasi modernləşmənin xüsusiyyətləri"*** adlanan ***ikinci yarımfəslində*** müəyyən edilmişdir ki, cəmiyyətin siyasi sisteminin və onun əsas institutlarının daim dəyişən siyasi mühitdə keyfiyyətli inkişafını nəzərdə tutan siyasi modernləşmə dinamik, zamanın çağırışlarına adekvat tərəqqinin əsas təzahürlərindən biri olaraq dəyərləndirilir. Permanent proses olaraq qəbul edilən modernləşmə islahatlar həyata keçirilməsi və innovasiyaların tətbiqi ilə reallaşdırılaraq bu gün həm də postsənaye cəmiyyətinə keçid anlamında qəbul olunur. Modernləşmə sosioloji makronəzəriyyənin formasiya və sivilizasiyadan sonra üçüncü paradiqması kimi qəbul edilir. Hazırda dünya iqtisadi sistemində bir sıra göstəricilərə görə öncül mövqeləri bölüşən Azərbaycan da daxil olmaqla inkişaf etməkdə olan ölkələrin böyük əksəriyyətində modernləşmə prosesi məhz qeyd olunan əsasda reallaşdırılır. Azərbaycanda ilk modernləşmə dalğası Azərbaycan Xalq Cümhuriyyəti dövründə özünü göstərmiş, Qərb modernizminin bəzi xüsusiyyətləri özünü büruzə verməyə başlamışdır. Dünyanın mütərəqqi, demokratik ölkələrinin dövlət quruculuğu prinsiplərinə əsaslanan Azərbaycan demokratik respublikası XX əsrin əvvəllərində Şərq dünyası üçün nümunə olan yeganə parlamentli müstəqil dövlət idi. Modernləşmənin aparıcı qüvvəsi kimi dövlət cəmiyyətdə mühüm rol oynamağa başlamışdı.

Sovetlər dövründə modernləşmə nəzəriyyəsi yasaq sayılan mövzulardan idi. Lakin SSRİ-nin süqutu ilə vəziyyət dəyişdi. Azərbaycan 1991-ci il 18 oktyabr tarixli Dövlət müstəqilliyi haqqında Konstitusiya aktında demokratik, hüquqi və dünyəvi dövlət olduğunu bəyan etmiş, ümumbəşəri yolla qarşıya qoyduğu strateji hədəflərə doğru irəliləmək iradəsini nümayiş etdirmişdi[14].

Ötən iki onillikdə həyatın bütün sferalarını əhatə etmiş və ardıcıl xarakter daşıyan liberallaşdırma və vətəndaş cəmiyyəti quruculuğu xəttini siyasi modernləşmənin zəmin qatı hesab etmək olar. Modernləşmədə öz yolunu tapan, Qərbi bir analoq kimi kopyalamayan ölkələr öz mədəni-sivilizasion xüsusiyyətlərini qoruyub saxlaya bilmiş, dünyanın ümumi inkişaf təcrübəsinə böyük töhfələr verərək onu daha da zənginləşdirmiş, hətta bəzi parametrlər üzrə inkişaf prosesində Qərbi qabaqlamağa da nail

---

[14] Dövlət Müstəqilliyi haqqında konstitusiya Aktı // **http://az.wikisource.org/wiki/**

olmuşlar[15]. Məhz belə ölkələrin təcrübəsi Azərbaycan üçün olduqca vacibdir.

Bu gün yalnız Azərbaycan cəmiyyətində deyil, MDB və Şərqi Avropa ölkələrinin böyük əksəriyyətində modernləşmə keçid, "aralıq" xarakter daşıyır. Müasir dünyada modernləşmə istənilən bir cəmiyyətin inkişafının mühüm şərtlərindən biridir. Eyni fəlsəfədən çıxış edərək hesab edirik ki, dünyanın indiki geosiyasi dizaynında bu xətt Azərbaycan üçün müstəsna əhəmiyyətə malikdir və bu gün ölkənin təşəkkülündə iştirak edən ən vacib amillərdən biridir. Özünün modern dövlət statusunu təsbit etmiş Azərbaycan bütün prioritet sahələr üzrə köklü keyfiyyət dəyişikliklərinin aparılması, şəffaflıq və plüralizmin genişləndirilməsi, yeni dövrün tələb və inkişaf tendensiyalarına cavab vermək iqtidarında olan dövlət siyasətinin yönəldilməsi yolunu seçmişdir. Azərbaycanda siyasi məzmunlu modernləşmənin uğurlarını şərtləndirən əsas amillərdən biri isə cəmiyyətdə özünü göstərən konsensusdur. Zəngin ölkələrdə demokratiyanın təkamülü və dönməz xarakteri siyasi sistemlə yanaşı, həm də məhz iqtisadi rifahın yüksəlişi ilə şərtlənir. Ölkəmizdə siyasi modernləşmə və demokratikləşmə proseslərinə xidmət edən iqtisadi əsas isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ötən əsrin son onillyində yenidən hakimiyyətə qayıdışından sonra yaradılmış, bununla həm də modernləşmə prosesinə keçidin əsas təməllərindən biri formalaşdırılmışdır. Son 20 ilin reallıqları da bunu təsdiq edir.

Araşdırmanın birinci fəslinin ***"KİV siyasi institut kimi və cəmiyyətin modernləşməsi prosesində onun yeri"*** adlanan ***üçüncü yarımfəslində*** aparılmış tədqiqatın nəticələri göstərir ki, müasir politologiya elmi kütləvi informasiya vasitələrinə (KİV) dünyada, regionda, konkret ölkədə cəmiyyətin öz daxilində yaşanan hadisələr barədə insanların, sosial qrupların, dövlətin operativ şəkildə məlumatlandırılması vasitəsi, həmçinin spesifik sosial funksiyaları yerinə yetirən informasiya yayım kanallarının məcmusu kimi yanaşır. İctimai fikri formalaşdırmaq, sosial tənzimləmə prosesində iştirak etmək, konkret rəyin yaranmasına nail olmaq yolu ilə kütləvi informasiya vasitələri insanı müəyyən hərəkətlərə, fəaliyyətə sövq edirlər. Kütləvi informasiya vasitələrinin hakimiyyətin "de-yure" hipotetik qolu adlandırılmasına rəğmən, hər hansı bir qanunverici, icraedici, hüquq-mühafizə yaxud digər sosial institutları yoxdur. Digər tərəfdən, KİV ən vacib siyasi problemlərlə bağlı ictimai fikri formalaşdırmaqla geniş xalq kütləsinin siyasi cəhətdən sosiallaşmasında əsas fak-

[15] История Востока. Т. 1. Восток в древности / отв. ред. В.А. Якобсон. Москва: ВЛ РАН, 1999, с. 132

torlardan biri kimi çıxış edir. Mətbuat, radio, televiziya, son illərdə isə internet siyasi proseslərin ayrılmaz, real hissəsinə çevrilmişdir. Sözügedən kontekstdə informasiya axını üzərində nəzarət və onun idarə edilməsi vacib siyasi məsələlərdən biri kimi çıxış etməkdədir. Çünki KİV-ə nəzarət obyektiv olaraq siyasi prosesə müdaxilə etmək və onun inkişafına təsir rıçaqlarını əldə saxlamaq deməkdir[16].

Müxtəlif dövrlərdə hakim fərqli siyasi rejimlərin hakimiyyət fəlsəfəsinə adekvat olaraq Azərbaycanda mediaya administrativ təzyiq, onun fəaliyyətinin nəzarət altında saxlanması, senzuraya məruz qalması faktları yer almışdır. Belə bir idarəçiliyin bariz nümunəsi qismində sovetlər dönəmini göstərmək mümkündür. Lakin bu gün inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycan cəmiyyətində də KİV informasiya dövriyyəsində həlledici rola malikdir.

Dövlət qanunverici orqan tərəfindən qəbul olunan, hökumət tərəfindən müəyyənləşdirilən, Prezident fərmanları ilə icraya yönəldilən qanunlar, qərarlar vasitəsilə hakimiyyətin və idarəçiliyin müxtəlif institutlarının fəaliyyəti əsasında KİV-in status və fəaliyyət normalarını müəyyən edir. KİV funksional olaraq dövlət siyasətinin əsas məqsəd və maraqlarına qarşı çıxa bilməz. Lakin tənqidçi funksiyası ilə KİV vətəndaşlara hakimiyyət orqanlarının fəaliyyətini analiz etmək və qiymətləndirmək imkanı verir. Müasir Azərbaycan şəraitində dövlət və KİV arasında qarşılıqlı münasibətlər ideoloji ehkamların aradan qaldırılmasından da keçir. Bu, nəticə etibarilə həmin əlaqələrin hüquqi müstəviyə sürüşməsini şərtləndirir və beləliklə, dəqiq hüquqi əsaslandırma tələb edir. İnformasiya sferasının artan rolu cəmiyyətin formalaşması prosesində mühüm faktorlardan olaraq fəal şəkildə siyasi, iqtisadi, müdafiə və milli təhlükəsizliyin digər tərkib hissələrinə təsir göstərməkdədir.

Dissertasiyanın **"KİV sahəsində dövlət informasiya siyasəti: təşəkkülü, formalaşması və reallaşdırılmasi prinsipləri"** adlanan **ikinci fəsli** üç yarımfəsli əhatə edir. ***"Dövlət informasiya siyasətinin tarixi inkişaf mərhələləri və xüsusiyyətləri"*** adlanan ***birinci yarımfəsildə*** göstərilir ki, Azərbaycanda dövlət informasiya siyasəti əsrlərlə davam edən tarixi təkamül proseslərinin nəticəsi kimi formalaşıb təşəkkül tapmışdır. Ölkəmizdə dövlət informasiya siyasəti bu tarixi inkişaf mərhələlərindən keçmişdir:

---

[16] Тугаев А.С., Хренов А.Е. Политология в схемах и комментариях. СПб: 2005 // **http://www.fictionbook.ru/author/александр тугаев/politologiya_v_shemah_i_kommentariyah/ read_online.html?page=1**, с. 34

1. XIX əsrdə Azərbaycanın çar Rusiyasının dövlət informasiya siyasətinə və senzurasına tabe olan mətbuat orqanlarının fəaliyyəti;

2. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət informasiya siyasəti;

3. Sovet dövlət informasiya siyasətinin yaranması və inkişaf xüsusiyyətləri;

4. Müstəqil Azərbaycan Respublikasında dövlət informasiya siyasəti.

Tədqiqatçı A.Tahirli Azərbaycanın informasiya siyasətinin "coğrafiyası"nı bir qədər də genişləndirərək buraya "Cənubi Azərbaycan" və "Azərbaycan mühacirət mətbuatı"nı daxil edir[17].

XIX əsrdə bu amillər Azərbaycanın informasiya siyasətinin təşəkkülünə təsir etdi: Rusiya dövlət informasiya və senzura siyasəti; Qərb və Rusiyanın təsiri ilə maarifçilik ideya cərəyanının Azərbaycanda yayılması.

Belə bir şəraitdə Rusiya imperiyasının təkibində olan Şimali Azərbaycanda Həsən bəy Zərdabinin təsisçiliyi ilə 1875-ci iyulun 22-də ilk mətbuat orqanı –"Əkinçi" qəzeti fəaliyyətə başladı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev "Əkinçi" qəzetinin Azərbaycanın informasiya siyasətinin təşəkkülündə oynadığı rola toxunaraq demişdir: "Milli demokratik mətbuatın "Əkinçi" qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri – maariflənmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycan milli-demokratik mətbuatının gələcək inkişafı üçün təməl daşı rolunu oynadı"[18].

Bu dövrdə informasiya siyasətinin təşəkkülündə istiqlalı, azadlığı, müstəqilliyi, habelə "Azərbaycan milli xartiyasını" təbliğ edən milli düşüncə sahiblərinin, mətbuat orqanlarının əvəzsiz rolu var idi.

Azərbaycanda dövlət informasiya siyasətinin təşəkkülündə və inkişafında XX əsrin əvvəllərində nəşr olunmuş mətbuat orqanlarının əvəzsiz iştirakı oldu. Həmin dövrdə mətbuat faktiki şəkildə "dördüncü hakimiyyət"ə çevrilə bilməsə də, mövcud mətbu orqanların kütləvi informasiya vasitələrinə transformasiysı istiqamətində ciddi, əməli addımlar atılırdı. XX əsrin əvvəllərində Azərbaycan jurnalistləri mətbuatın demokratik ənənələrini uğurla inkişaf etdirərək onu yeni keyfiyyət pilləsinə qaldırmışdılar. C.Məmmədquluzadə, Ö.Nemanzadə, S.Hüseyn, Ə.Nəzmi, Ə.Qəmküsar, Ü.Hacıbəyov, M.S.Ordubadi və

---

[17] Tahirli A. Azərbaycan mühacirət mətbuatı. Bakı: Qapp-Poliqraf korporasiyası, 2002, s. 3

[18] "Azərbaycan milli mətbuatının yaradılmasının 125 illi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı // "Azərbaycan" qəzeti, 2000, 28 mart

başqaları demokratik mətbuatın aparıcı simaları sayılırdılar. İnqilabi-demokratik ideyaların təbliğində N.Nərimanov, Y.V.Çəmənzəminli, R.Əfəndiyev, F.Köçərli, S.M.Qənizadə də fəal mövqe tuturdular. Milli demokratik ideyalar isə, əsasən, "Həyat", "Füyuzat", "Tazə həyat", "Şəlalə", "Açıq söz", "Dirilik", "İrşad", "Tərəqqi" kimi mətbuat orqanlarında geniş əksini tapırdı.

1918-ci il mayın 28-də müsəlman Şərqində ilk dəfə Azərbaycanda Demokratik Respublikanın elan olunması ilə dövlət informasiya siyasətinin həyata keçirilməsində də keyfiyyətcə yeni mərhələ başlandı. Yeni dövrün ideoloji tələblərinə uyğunlaşdırılmış informasiya siyasətinin həyata keçirilməsi daha keyfiyyətli, mükəmməl və yetkin normativ baza tələb edirdi. 1919-cu il oktyabrın 30-da AXC parlamentində qəbul olunan "Mətbuat nizamnaməsi" dövlət informasiya siyasətinin inkişafına ciddi təkan verdi. Bu nizamnamə ilə Azərbaycanda senzuranı ləğv edildi, habelə KİV-in yaranmasının hüquqi yolları göstərildi.

1920-ci ildən AXC-nin devrilməsi və Azərbaycanın sovetləşməsi ilə əlaqədar Azərbaycanda dövlət informasiya siyasətinin mahiyyyəti də tamamilə dəyişdi. SSRİ-də 30-cu illərdə partiya-sovet ideyalarına qarşı çıxan hər hansı bir ideyanın yayılmasının qarşısını alan çoxsəviyyəli mürəkkəb senzura sistemi yaradıldı. Dövlət informasiya siyasəti xalqın və vətəndaşların deyil, partiyanın, dövlətin maraqlarını ifadə edirdi. Sovetlər birliyi dövründə Azərbaycanda KİV sahəsində dövlət siyasəti vahid bir xətt üzərində aparılmışdır: kütləvi informasiya vasitələri kommunist partiyasının və sovet dövlətinin ideoloji prinsiplərini təbliğ etməlidir. Dövlətin inhisarında olan mətbuat orqanları kommunist partiyasının total nəzarəti altında fəaliyyət göstərirdilər[19].

1969-cu il iyulun 14-də ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə dövlət informasiya siyasətinin mahiyyətində əsaslı dönüş baş verdi. Bu mərhələdən Azərbaycan xalqının ictimai fikrində, bütövlükdə cəmiyyət həyatında milli-mənəvi dəyərlərə qayıdış ruhu gücləndi. Heydər Əliyev digər yaradıcı insanlarla yanaşı, 70-ci illərdə Azərbaycan jurnalistlərinə də böyük qayğı göstərir, onların yaradıcılığını izləyirdi. Ulu öndərin demokratikliyi, obyektivliyi və prinsipiallığı bütün Sovet çap mediası nümayəndələrinə məlum idi.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ölkəmizdə vətəndaş cəmiyyətinin və hüquqi dövlətin vacib atributu olan kütləvi informasiya vasitələrinin inkişafında yeni mərhələnin əsası qoyulmuşdur.

---

[19] Amaşov Ə., Əlibəyli Q. Media və hakimiyyət. Bakı: AJMK, 2002, s. 5

Azərbaycanın son 20 ildə söz və mətbuat azadlığının inkişaf dinamikasına görə MDB-də öncül yerlərdən birini tutması da məhz bu reallıqlarla şərtlənir. Akademik R.Mehdiyevin yazdığı kimi, "Demokratik inkişaf yolu seçmiş müstəqil Azərbaycan dövləti demokratiyanın daimi atributlarından biri olan azad, müstəqil mətbuatın formalaşması istiqamətində diqqətəlayiq addım atmış və atmaqdadır. Ölkəmizdə söz, fikir, mətbuat azadlığının təmin edilməsi, yüzlərlə qəzet və jurnalın tam sərbəst şəraitdə nəşri həm demokratiyanın hərtərəfli qərar tapması, həm də mətbuat azadlığının maneəsiz həyata keçirilməsi üçün lazım olan bütün şəraitin yaradılmasından xəbər verir"[20].

Tədqiqatın ikinci fəslinin ***"KİV sahəsində dövlət siyasətinin nəzəri-metodoloji əsasları"*** adlanan ***ikinci yarımfəslində*** diqqət ilk növbədə belə bir mühüm məqama cəlb edilir ki, bu gün informasiya cəmiyyətinin qurulması kontekstində qlobal miqyasda sosial inqilabın növbəti texnoloji və dünyəvi mərhələsi yaşanmaqdadır. Baş verənlər müxtəlif sosial effektlərin yaranması ilə kifayətlənməyərək ictimai rəydə informasiya cəmiyyəti nəzəriyyəsi adı altında yeni cərəyanın yaranmasını da şərtləndirmişdir. Çünki cəmiyyətin tərəqqisində texnoloji amillər 50-60 il əvvəllə müqayisədə indi daha böyük rol oynamağa başlamışlar ki, bu da ictimai rəyin formalaşması prosesinə təsirsiz ötüşmür.

KİV sahəsində dövlət siyasətinin həyata keçirilməsinin iki metodunu fərqləndirmək mümkündür. Onlardan biri ideoloji metoddur ki, o artıq tarixin arxivinə çevrilmiş Sovetlər İttifaqında qüvvədə olmuşdur. İqtisadi metod da mövcuddur ki, ondan birbaşa və ya dolayısı ilə istifadə olunur. Dolayı yol, təsir media bazarının dövlət tənzimlənməsini nəzərdə tutur. Birbaşa təsir isə plüralizmin dəstəklənməsi və ya müəyyən media layihələrinin maliyyələşdirilməsi məqsədilə KİV-ə dotasiya ayrılmasıdır. Sonuncudan ölkəmizdə Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması fonunda geniş istifadə olunur və müsbət nəticələrini də verir.

Dövlətin media ilə bağlı siyasətindən bəhs edərkən KİV-in fəaliyyətini tənzimləyən qanunvericilik aktlarına, eləcə də hüquqi əsasa malik digər sənədlərə xüsusi diqqət yetirilməlidir. Hazırda adı dünyanın siyasi xəritəsində keçən dövlətlərin böyük əksəriyyətinin Konstitusiyası söz və fikir azadlığına təminat verir. Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsində hər kəsin ölkəmizdə siyasi plüralizmin bərqərar edilməsi şəraitində söz və mətbuat azadlığının təmin olunması, demokra-

[20] Mehdiyev R. Demokratik Azərbaycan və müstəqil mətbuatın inkişafı. Azərbaycanın inkişaf dialektikası. Bakı: AMEN, 2000, s. 102-103

tik və azad medianın formalaşdırılması məqsədilə qanunvericilik səviyysində mühüm addımlar atılmışdır[21].

Qoyulmuş məqsədə nail olmaq və müvafiq hüquqi mexanizmlər işləyib hazır-lamaq üçün dövlətin siyasi-hüquqi və iqtisadi potensialından tam istifadə edilməsi sahəsində müvafiq tədbirlər görülür. Hazırda KİV-in sayına görə Azərbaycan MDB və Şərqi Avropa ölkələri arasında ön sıraları bölüşür. Ölkədə 5000-ə yaxın mətbuat orqan qeydiyyatdan keçmiş, yüzlərlə informasiya portalı yaradılmış, 50-dən çox informasiya agentliyi qeydiyyata alınmışdır. Bundan başqa Azərbaycanda genişzolaqlı sərbəst internet fəaliyyət göstərir. Ölkədə son illər ərzində informasiya və kommunikasiya texnologiyalarının sürətli tərəqqisi internetin imkanlarının genişlənməsinə şərait yaratmışdır və bu gün əhalinin 70 faizə yaxını internet istifadəçisidir. Bunlarla yanaşı, Azərbaycanda 9 ümumrespublika televiziyasının, bir peykin, 14 regional və 14 kabel televiziyasının, eləcə də 14 radionun fəaliyyəti söz azadlığını təmin edən əsas vasitələr sırasında yer alır[22]. Onların böyük əksəriyyəti özəl qurumlara, ayrı-ayrı şəxslərə və müxtəlif mövqedə duran siyasi və ictimai təşkilatlara məxsusdur. Hazırda Azərbaycanda kütləvi informasiya vasitələrində istənilən fikri söyləmək, dövlət sirri təşkil etməyən istənilən faktı açıqlamaq üçün heç bir məhdudiyyət mövcud deyil.

Ümumiyyətlə, kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitu-siyasından, "Kütləvi informasiya vasitələri haqqında" Qanundan[23], "Televiziya və radio yayımı haqqında"[24], "Məlumat azadlığı haqqında"[25], "Vətəndasların muraciətlərinə baxılma qaydası haqqında"[26], "Dövlət sirri haqqında"[27], "Muəlliflik huququ və əlaqəli huquqlar haqqında"[28] Azər-baycan Respublikası qanunlarından, habelə digər sahəvi qanunvericilik aktlarından ibarətdir. Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlət-lərarası müqavilələrlə həmin qanun arasında ziddiyyət yaranarsa,

---

[21] **www.прессъоунсил.аз**

[22] **mincom.gov.az**

[23] "Kütləvi informasiya vasitələri haqqında" AR Qanunu / AR Qanunvericilik toplusu, Bakı, 07 dekabr 1999, № 769-IQ

[24] "Televiziya və radio yayımı haqqında" AR Qanunu // **http:// ict.az/az**

[25] "Məlumat azadlığı haqqında" AR Qanunu // **http://ict.az/az**

[26] "Vətəndaşların müraciətlərinə baxılması haqqında" AR Qanunu // **http://president.az/letters/ laws/2**

[27] "Dövlət sirri haqqında" AR Qanunu // **http://mincom.gov.az**

[28] "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında " AR Qanunu // **http://az.wikisonrce.org/niki/**

beynəlxalq müqavilələr tətbiq edilir. Bu da KİV sahəsində ölkəmizdə təkmil qanunvericilik bazasının formalaşdırılmasından xəbər verir.

Elmi işin ikinci fəslinin ***"Mövcud siyasi sistemin dövlətin informasiya siyasətinin məzmununa təsiri"*** adlanan ***üçüncü yarımfəslində*** belə bir fikir əsas götürülmüşdür ki, istənilən klassik, yaxud müasir cəmiyyət siyasi cəhətdən ölçülüb-biçilmiş formalara uyğun fəaliyyət göstərərək vahid sosial orqanizm qismində həmin cəmiyyətin normal funksiyasını təmin edən hakimiyyət mexanizminə malik olur. Siyasi sistem adlandırılan bu mexanizmdən istifadə cəmiyyətin siyasi həyatını digər sahələrdən fərqləndirməyə və eyni zamanda onların arasındakı qarşılıqlı əlaqənin mövcudluğunu müəyyənləşdirməyə imkan verir.

Lakin unutmaq olmaz ki, siyasi sistem həm də cəmiyyətin ayrı-ayrı seqmentlərini birləşdirməklə mühüm bir inteqrativ funksiyanın öhdəsindən gəlir. Bu mənada A.S.Panarin yazır ki, siyasət bir tərəfdən "qrup maraq və məqsədlərini izləmək üçün vasitədir, digər tərəfdən spesifik məqsədlərin ictimai müqəddəratın təyinatı sisteminə inteqrasiya yoludur", səmərəli siyasi sistem isə "millətin sosial sifarişlərinin yerinə yetrilməsi və onların əməli çəkildə reallaşması texnologiyasının hazırlanması mexanizmi kimi çıxış edir"[29].

Azərbaycanın bir dövlət olaraq siyasi sistemi milli-tarixi şəraitin aparıcı əlamətlərini özündə təcəssüm etdirməsi ilə səciyyələnir. Azərbaycanda siyasi sistemin struktur cəhətdən formalaşması prosesi 1995-ci il noyabrın 12-də yeni Konstitusiyasının qəbul edilməsi ilə yekunlaşmışdır. Hazırda hakimiyyətin bölünməsi prinsipinə müvafiq olaraq ölkəmizdə müstəqil şəkildə formalaşaraq fəaliyyət göstərən üç hakimiyyət qolu müəyyən edilmişdir: qanunvericilik, icra və məhkəmə hakimiyyəti. Ölkəmizin malik olduğu siyasi sisteminin digər xarakterik cəhətlərindən biri də onun cəmiyyətin fərqli tələblərini, insanların və sosial təbəqələrin müxtəlif maraqlarını və istəklərin nəzərə almasında, dövlət siyasətinin formalaşdırılması və reallaşmasında ümumi maraqlar nisbətini gözləməsindədir[30].

Dövlətin informasiya siyasətini cəmiyyətdəki mövcud siyasi sistemin tipi müəyyən edir. Demokratik konstitusiya ilə tənzimlənən demokratik siyasi sistem söz azadlığı prinsipini rəhbər tutaraq cəmiyyətin informasiya həyatına dövlət müdaxiləsinin məhdudlaşdırılmasını nəzərdə tutur. İnformasiya sferası informasiyanın yaradılması, emalı və istehlakı ilə

---

[29] Панарин А.С. Философия политики. Учебное пособие для политологичесих факултетов и гуманитарных вузов. Москва: Новая школа, 1996, с. 331-334

[30] **www. azerbaijan.az**, s. 45

bağlı subyektlərin fəaliyyət dairəsidir. İnformasiya siyasəti nəticəsində onun iqtisadi, hərbi, sosial və digər növləri fərqləndirilir. Siyasi mədəniyyətin formalaşmasında əsas elementlərdən biri kimi iştirak edən media insan tərəfindən siyasət dünyasının tanınmasının ən effektiv vasitələrindən biri kimi çıxış edir. Bu müstəvidə KİV-ə təsir göstərən əsas subyekt qismində dövlət, hakimiyyət orqanları sistemi çıxış edir. İnformasiya münasibətləri kontekstində isə dövlətin informasiya siyasəti kifayət qədər geniş məsələləri əhatə edir. Dövlətin informasiya siyasəti cəmiyyətin siyasi sisteminin tipi ilə müəyyən olunur.

Azərbaycan Respublikasında plüralizmin, söz və məlumat azadlığının inkişaf etdirilməsi uğurla reallaşdırılan hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun mühüm şərtlərindən birinə çevrilmişdir. Dövlət tərəfindən həyata keçirilən informasiya siyasəti Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş fikir, söz və məlumat azadlığının, vətəndaşların informasiya əldə etmək hüququnun dolğun və etibarlı şəkildə təmin olunmasına yönəlmişdir.

Dissertasiyanın **"Müasir informasiya cəmiyyətində KİV-in inteqrativ funksiyası"** adlanan **üçüncü fəsli** iki yarımfəsildən ibarətdir. Bu fəslin ***"KİV - informasiya siyasətinin formalaşmasının və həyata keçirilməsinin aləti kimi"*** adlanan ***birinci yarımfəslində*** bildirilir ki, müasir qloballaşma dövründə dövlət cəmiyyətin maraqları naminə ardıcıl informasiya siyasəti yürüdür. Dövlət informasiya siyasəti şəxsiyyətin, cəmiyyətin və dövlətin balanslaşdırılmış maraqlarının məcmusunu müəyyənləşdirən informasiya sferasında milli maraqların müdafiəsini təmin etmək məqsədilə həyata keçirilir. İnformasiya siyasətinin formalaşmasında KİV-in rolu müstəsnadır.

XXI əsrdə bəşəriyyət yeni sivilizasiya mərhələsinə – informasiya cəmiyyəti dövrünə qədəm qoymuşdur. İnformasiya cəmiyyətində informasiya həyati əhəmiyyətli məsələyə, insanların, sosiumun və bütövlükdə bəşəriyyətin şüurundakı obyektiv prosesi əks etdirən, saxlayan KİV isə onu bütün dünyaya yayan vasitəyə çevrilmişdir.

Azərbaycan tədqiqatçısı, professor C.Məmmədli informasiya cəmiyyətində KİV-in simasının dəyişdiyini qeyd edir[31]. Dövlət informasiya siyasətinin humanitar tərkib hissəsində KİV mühüm yer tutur. "İnkişaf etmiş, müstəqil KİV-nin mövcudluğuna hər bir demokratik

---

[31] Məmmədli C. İnformasiya cəmiyyətinin mahiyyəti və təşkili prinsipləri: beynəlxalq təcrübə / Nəsir İmanquliyevin 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan jurnalistikası qloballaşma dövründə: qaynaqlar və perspektivə baxış" Respublika elmi-praktik konfransının materialları (21-22 dekabr 2011). Bakı: Şərq-Qərb, 2011, s. 595

dövlətin daxili sabitliyinin, cəmiyyətin səmərəli idarə olunmasının vacib şərtlərindən biri" kimi baxan professor Əli Həsənov KİV-in informasiya daşıyıcısı funksiyasını onun əsas funksiyası hesab edir"[32].

Təcrübə göstərir ki, İKT-nin ən son imkanlarından bəhrələnən KİV-lər informasiyanı daha operativ çatdırmaq qabiliyyətinə malikdirlər. Müasir KİV İKT-nin tətbiqi sayəsində dünya informasiya məkanına çox asanlıqla daxil olur, dünya xəbərlərini əldə edərək cəmiyyətə çatdırır, oxucu auditoriyasının tələbatını lazımi səviyyədə ödəyə bilir. İnternet vasitəsilə KİV ətraflı informasiyalar əldə edir və verir. Statistika göstərir ki, Azərbaycanda internet istifadəçilərinin sayı 70 faizdən çoxdur. "Facebook" istifadəçilərinin sayı 1.250 min nəfəri keçib və bu rəqəmə gündəlik dinamika xasdır. Bu sosial şəbəkədən istifadə edənlərin 63 faizi kişi, 37 faizi isə qadınlardır.

Azərbaycan Respublikasında dövlət informasiya siyasətinin əsas hədəflərindən biri də İKT-nin KİV-ə tətbiqi və dünya standartlarına uyğun inkişaf etdirilməsidir. Elektron qəzetlər öz tipoloji xüsusiyyətlərini də formalaşdırmaqdadırlar. Bu gün ölkənin media güzərgahında yeritdiyi fərqli informasiya siyasətinə, elektoratının palitrasına görə fərqlənən mətbuat düşərgələşərək iqtidar, müxalifət və nisbətən müstəqil mətbuata ayrılıb. Prezident İlham Əliyevin söylədiyi kimi, "Azərbaycanda sözün əsil mənasında, müstəqil mətbuata, KİV-lərə böyük ehtiyac vardır... Əminəm ki, normal, hüquqi, demokratik dövlətin qurulması işində müstəqil KİV-lərin çox böyük əhəmiyyəti var və bu əhəmiyyət getdikcə artır"[33].

Azərbaycanda dövlət informasiya siyasəti həm də KİV vasitəsilə reallaşır və cəmiyyətə mənəvi-siyasi təsir göstərir. Dövlət informasiya siyasətinin əsas istiqamətlərini KİV sahəsində siyasət, medianı tənzimləyən qanunvericilik, KİV-in öz informasiya siyasəti, KİV - dövlət informasiya siyasətinin qarşılıqlı münasibətləri təşkil edir.

Dövlət informasiya siyasəti ölkənin milli təhlükəsizliyinin tərkib hissəsi olan informasiya təhlükəsizliyini; sosial informasiya sistemlərinin, informasiya resurslarının təhlükəsizliyini təmin edir; informasion-psixoloji təhlükələrə qarşı sipər yaradır, dövlətin, cəmiyyətin vətəndaşların normal fəaliyyəti üçün şərait yaradır.

Dövlət informasiya siyasəti ənənəvi və yeni medianın yazılı və elektron KİV-in texnoloji inkişafını təmin edir; İKT-nin KİV-ə tətbiqini,

---

[32] Həsənov Ə. Mətbuat azadlığı və jurnalist məsuliyyəti / "Mətbuat və demokratiya", Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1999, s. 26

[33] Əliyev İ. İqtibaslar və təhlil. Bakı: Azərbaycan, 2006, s. 52-53

sosial medianın, internetin, bloqların reallaşmasına yardım edir, KİV və hakimiyyətə inamı möhkəmlədir.

KİV özünün informasiya, tənqidi, nəzarətedici, sosiallaşma, rasionallaşma, humanitar funksiyalarını yerinə yetirməklə dövlət informasiya siyasətinin formalaşması və gerçəkləşməsinə təsir göstərir.

Tədqiqatın üçüncü fəslinin ***“Siyasi hakimiyyətin və informasiya siyasətinin (KİV-lərin timsalında) vətəndaş cəmiyyətinin formalaşmasında rolu”*** adlanan ***ikinci yarımfəslində*** ilk növbədə belə bir müddəa irəli sürülür ki, müasir dünyada informasiyanın rolu getdikcə artmaqda, dövlət institutları və ictimai strukturlar arasında kommunikasiya əlaqələri çoxşaxəli xarakter daşımaqdadır. Qeyd olunan kontekstdə kütləvi informasiya vasitələrinin (KİV) siyasətin əsas aktorlarından biri kimi cəmiyyətdə gedən proseslərə təsiri davamlı şəkildə yüksəlir və bu istər milli, istərsə də beynəlxalq səviyyədə özünü qabarıq büruzə verir. Sözügedən məqam demokratik siyasi sistemlərin mövcud olduğu şəraitdə özünü daha aydın göstərir. Çünki bu cür sistemlərdə dövlətin informasiya siyasəti vətəndaş cəmiyyəti institutları ilə tərəfdaşlıq münasibətlərinin qurulmasını özündə ehtiva edir. KİV də bir institut olaraq dövlət tərəfindən müstəqil və kifayət qədər nüfuzlu tərəfdaş kimi qəbul edilir. Bu halda siyasi həyatın müxtəlif məsələlərinə münasibətdə cəmiy-yətin ayrı-ayrı strukturlarının fərqli mövqe tutması sağlam siyasəi rəqabətin, dialoq təcrübəsinin əlaməti olaraq qiymətləndirilir.

Tədqiqat nəticəsində əldə olunmuş qənaətlərə görə:

Dövlət və cəmiyyət arasında normal kommunikasiya əlaqələrinin mövcudluğu həm də sosiumun siyasi gündəmin formalaşması və ya dəyişməsində yaxından iştirak etməsi ilə dövlətə ciddi təsir vasitəsinin ərsəyə gəlməsinə imkan verir.

Uğurlu modernləşmənin keyfiyyət amilinə əsaslanan əsas baza şərtlərindən biri vətəndaş cəmiyyəti, onun güclü siyasi institutlarının mövcudluğudur. Azərbaycanda kütləvi informasiya vasitələri ilə bağlı dövlət siyasətinin başlıca mahiyyəti ondan ibarətdir ki, bu vasitələr xalqın maariflənməsi və vətəndaş cəmiyyətinin quruculuğunda qüdrətli orqana çevrilsin.

Vətəndaş cəmiyyəti ilə qarşılıqlı şəkildə səmərəli işləmək üçün mükəmməl dövlət informasiya siyasətinin olması, vətəndaş təşəbbüslərinin formalaşması və dövriyyəyə daxil olması üçün KİV-dən bir vasitə olaraq istifadə edilməsi olduqca mühümdür.

İnformasiya siyasəti müasir cəmiyyətin sosial strukturuna söykənir. Bu zaman təbii olaraq informasiyanın toplanması, emalı və yayılmasına

görə məsuliyyət daşıyan əsas institut kimi KİV-in rolu aktivləşir. Müasir KİV-in texnoloji imkanları isə təkcə sosial reallıqları əks etdirməyə imkan vermir, eyni zamanda medianın bu reallıqların yaradılmasının fəal iştirakçısı olmasını təmin edir. Vətəndaş cəmiyyətinin üfüqi strukturu isə KİV-in məhsulu olan informasiyanın daha sürətlə yayılmasına rəvac verir. Müasir dünya və Azərbaycan reallığı birmənalı şəkildə sübuta yetirmişdir ki, KİV vətəndaş cəmiyyətinin formalaşmasının əsas dayaqlarından və iştirakçılarından biridir.

Dissertasiyanın **"Nəticə"** hissəsində əldə olunmuş qənaətlər ümumiləşdirilmiş, mövzunun perspektiv istiqamətləri müəyyənləşdirilmiş, tədqiqatın nəticələri nəzəri-metodoloji tezislər şəklinə salınmışdır.

**Əlavə** bölməsində dövlət informasiya siyasətinin anlayışı, istiqamətləri, məqsədləri, onun struktur tərkibini əks etdirən elementlər modelləşdirilmişdir.

**Dissertasiyanın əsas müddəaları müəllifin dərc olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. Heydər Əliyevin dövlətçilik dərsləri // "Dirçəliş – XXI əsr", 2004-2005, № 82-83, s. 72-81.
2. Azərbaycan – qloballaşan dünyanın təsir məkanı. Ramiz Mehdiyev. Vətəndaş cəmiyyətinə yol açan ideyalar, B.: Oskar, 2006, s. 347-357.
3. Müasir tariximizə mükəmməl elmi-fəlsəfi yanaşma. Ramiz Mehdiyev. Yeni siyasət: inkişafa doğru, I cild, B.: Oskar, 2008, s.137-153.
4. İqtisadi inkişaf liberallaşma və modernləşmənin vacib şərtidir. Ramiz Mehdiyev. Yeni siyasət: inkişafa doğru, II cild, B.: Oskar, 2008, s. 262- 280.
5. Azərbaycanda siyasi sistemin formalaşmasının bəzi məsələləri // "Dirçəliş – XXI əsr", 2011, № 158-159, s.269-279
6. Modernləşmə prosesi və media institutu // AMEA-nın Məruzələri, 2012, № 4, s. 170-181
7. Milli ideya, qüdrətli dövlət və güclü lider haqqında // "Dirçəliş – XXI əsr", 2012, № 168, s.162-172.
8. Cəmiyyətdə informasiya siyasətinin mahiyyəti // "Dirçəliş – XXI əsr", 2013, № 176-177, s.331-343.
9. KİV sahəsində dövlət siyasətinin istiqamətləri // Azərbaycan Pedaqoji Universitetinin Xəbərləri, 2013, № 1, s.197-203.

10. Siyasi sistem və dövlətin informasiya siyasəti: təcrübədən ənənəyə // AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq institutunun Elmi əsərləri, 2013, № 2, s.150-156

11. Роль СМИ в процессах модернизации в Азербайджане после восстановления государственной независимости // Казахская Головная Архитектурно-Строительная Академия. Научный журнал «Вестник», Серия гуманитарные и естественные науки. Алматы, 2013, № 2(48), с.232-239.

12. Azərbaycanın dövlət informasiya siyasəti və KİV// AMEA İnformasiya Texnologiyaları İnstitutu. "İnformasiya cəmiyyəti problemləri", 2013, № 1, s.75-82.

13. Политическая модернизация и средства массовой информации в Азербайджане // Научно-теоретический и практический журнал «Оралдын Гылым Жаршысы». Серия – Философия, политология. Казахстан, 2013, № 31(79), с.96-101.

14. İnformasiya siyasətinin formalaşmasında və həyata keçirilməsində KİV-in rolu // "Geostrategiya", 2014, № 01, s.38-44.

15. Средства массовой информации в контексте процессов модернизации // Международное научно-периодическое издание «Межкультурные коммуникации». Тбилиси, 2014, № 22, с.120-125.

16. СМИ и модернизация в Азербайджане // Казахский Национальный Университет имени АЛЬ-ФАРАБИ. «ВЕСТНИК КазНУ». Серия историческая. Алматы, 2014, № 01(72), с.146-151.

**Məruzələr:**

17. Müasir dövrdə qloballaşma prosesinə hüquqi və siyasi yanaşmalar / 10 Dekabr Beynəlxalq İnsan Hüquqları gününə həsr edilmiş beynəlxalq elmi-praktiki konfrans. Bakı, 13-14 dekabr 2012

18. Müstəqillik dövründə Azərbaycanın dövlət informasiya siyasəti / Azərbaycan xalqının ümummilli lidei Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş "İnformasiya təhlükəsizliyi problemləri üzrə I respublika elmi-praktiki konfransı"nın Əsərləri . Bakı, 17-18 may 2013, s.11-14

19. Azərbaycan və Çin modernləşmə yolunda: müasir çağırışlar və ənənə / Çin və Azərbaycanın iqtisadi inkişaf fenomeni vətəndaşların sosial-iqtisadi hüquqlarının inkişafı kontekstində beynəlxalq konfransının məruzə və tezislər toplusu. Bakı: "Ol" MMC, iyun, 2013, s. 101-104

20. NATO-nun yeni strateji konsepsiyası və Cənubu Qafqazda təhlükəsizlik çağırışları / Beynəlxalq konfransın Məruzə və tezislər toplusu. Bakı: Elm və təhsil, 18 dekabr 2013, s.45-48

**Х.Г.Ниязов**

# ГОСУДАРСТВЕННАЯ ИНФОРМАЦИОННАЯ ПОЛИТИКА В УСЛОВИЯХ МОДЕРНИЗАЦИИ ПОЛИТИЧЕСКОЙ СИСТЕМЫ АЗЕРБАЙДЖАНА

## Р Е З Ю М Е

В «**Введении**» диссертации обоснована актуальность исследуемой проблемы, а также указаны степень изученности темы, цели и обязанности, теоритико-методологические основы, научные новшества, теоретическая и практическая значимость.

В первой главе под названием «**Модернизация политической системы как существенный фактор в формировании информационной политики**» в первую очередь, изучены важность информационной политики в обществе, система концепций этой политики, теоретико-методологические основы, затем проанализированы свойства политической модернизации в Азербайджане, а также определена ценность СМИ как политического института в процессе модернизации общества.

Во второй главе «**Государственная информационная политика в области СМИ: принципы организации, формирования и реализации**» исследованы этапы исторического развития государственной информационной политики и присущие ей свойства, исходя из этого теоретико-методологические основы государственной политики превратились в предмет систематических исследований в области СМИ, в том числе проведен детальный анализ проблемы влияния существующей политической системы на содержание информационной политики государства.

В последней главе «**Интегративная функция СМИ в современном информационном обществе**» охвачены два основных направления: роль СМИ как основное средство в формировании информационной политики и ее реализации; роль политической власти и информационной политики (на примере СМИ) в формировании гражданского общества.

В **«Заключении»** диссертационного исследования обобщены выводы, определены перспективные направления темы, а итоги исследования приведены в виде теоретико-методологических тезисов.

В разделе «**Приложение**» схемы раскрывают теоретико-методологическое значение научного исследования.

**Kh.G. Niyazov**

# STATE INFORMATION POLICY IN CONDITIONS OF MODERNIZATION POLITICAL SYSTEM OF AZERBAIJAN


## Summary

The "**Introduction**" of the dissertation explains the urgency of investigation problem, identifies the degree of research theme, aims and duties, theoretical and methodological bases, scientific innovations, theoretical and practical significance.

In the first chapter titled "**Modernization of the political system as a significant factor in the formation of information policy**" primarily studied the importance of information policy in the society, the system of concepts of this policy, theoretical and methodological bases, and then analyzed the properties of political modernization in Azerbaijan, as well as determined the value of Media as a political institution in the modernization process of society.

In the second chapter, "**State information policy in the field of Media: the principles of organization, formation and implementation**" investigated historical stages of development of state information policies and inherent properties, on the basis of this theoretical and methodological bases of state policy have become the subject of systematic research in the field of media, including a detailed analysis of the problem of existing political system influence to the maintenance of an information policy.

The final chapter, "**The integrative function of the Media in contemporary information society**" covers two main directions: the role of the media as a basic tool of information policy formation and its implementation; the role of political power and information policy (for example, the media) in the formation of civil society.

The "**Conclusion**" summarizes the results of the research, the theme perspective directions, also the results are presented in theoretical and methodological theses.

In the section "**Appendix**" schemes reveal theoretical and methodological significance of scientific research.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
НАУЧНО ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ
ПО ПРАВАМ ЧЕЛОВЕКА**

---

***На правах рукописи***

**ХАЛИД ГУДРАТ оглы НИЯЗОВ**

# ГОСУДАРСТВЕННАЯ ИНФОРМАЦИОННАЯ ПОЛИТИКА В УСЛОВИЯХ МОДЕРНИЗАЦИИ ПОЛИТИЧЕСКОЙ СИСТЕМЫ АЗЕРБАЙДЖАНА

**Специальность: 5904.01- Политические институты и системы**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора
философии по политическим наукам**

**БАКУ - 2014**